# Azərbaycanda həyata keçirilən neft strategiyası ölkənin maraqlarına, hərtərəfli inkişafa xidmət edir

**Beynəlxalq nüfuzu günü-gündən artan Azərbaycanın əlaqələri daim genişlənir və Avropanın enerji təhlükəsizliyində və dünya enerji sistemində mövqeyi əhəmiyyətli dərəcədə güclənir. Qitənin iqtisadiyatında bu iştirak gücləndikcə, ölkəmizin strateji tərəfdarları da durmadan artır. Məsələ ondadır ki, Azərbaycanın reallaşdırdığı beynəlxalq əməkdaşlıq birgəyaşayışı, inkişafı və inteqrasiyanı nümayiş etdirir. Ölkəmiz beynəlxalq miqyasda müstəqil iqtisadi siyasət yürüdür. Bu kurs uğuru təmin edən, siyasi müstəqilliyi daim möhkəmləndirən əsas amildir.**

Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Cənub" qaz dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Bu, bizim üçün enerji təhlükəsizliyidir. Çünki Azərbaycan beynəlxalq bazarlara böyük həcmdə təbii qaz ixrac etmək imkanı qazanacaq. Bu, həm də istehlakçı və tranzit ölkələr üçün enerji təhlükəsizliyidir. Çünki bu gün enerji təhlükəsizliyi istənilən ölkənin milli təhlükəsizliyindən ayrı baxıla bilməz. Enerji resursları nəinki çiçəklənmə, proqnozlaşdırma və sabitlik mənbəyi ola bilir, həmçinin bəzən rəqabət və düşmənçilik mənbəyinə də çevrilir. Fikrimcə, bizim fəlsəfəmiz ondan ibarətdir ki, enerji resursları sabitliyə, proqnozlaşdırmaya, əməkdaşlığa və qarşılıqlı dəstəyə töhfə verməlidir. Əminəm ki, hasilatçı, tranzit və istehlakçı ölkələr üçün uduşlu vəziyyət, layihənin 3 komponenti arasındakı maraqlar balansı layihəmizin uğurla həyata keçirilməsinin başlıca səbəbi olacaq". Göründüyü kimi, ölkəmizin beynəlxalq iqtisadiyyatda iştirakı qarşılıqlı maraqları təmin edən sabitliyə, sülhə, dövlətlərin əməkdaşlığına istiqamətlənib. Çünki iqtisadi maraqların təmini siyasi sabitliyə, sosial rifaha xidmət edən amildir.

Dövlət başçısı transmilli layihələrdə Azərbaycanın oynadığı rol barədə deyib ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya qitəsini Avropa ilə birləşdirəcək mühüm qovşaqdır. TANAP və TAP layihələrinin tikintisi isə "Cənub" qaz dəhlizi layihəsini formalaşdırır və bundan sonra Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu mühüm dərəcədə artacaq və Avropanın enerji xəritəsini dəyişəcək. Məsələn, Bolqarıstan da "Cənub" qaz dəhlizi layihəsinin iştifakçısıdır, gələcəkdə tranzit kimi Bolqarıstan həmin lahyihələrdə mühüm rol oyanayacaqdır.

Bu qaz layihələrinin, artıq bilindiyi kimi, bir önəmi də odur ki, iştirakçı ölkələr istehlakçı olacaqlar. Həmin beynəlxalq layihələr iki qitə dövlətləri arasında geniş əməkdaşlıq, sosial-iqtisadi inkişaf üçün çox mühüm zəmindir. Layihələrin əhatə dairəsinə baxarkən görürsən ki, bu layihələr sadəcə Türkiyə ilə Azərbaycana deyil, bütün ətraf bölgələrə sülh və inkişaf gətirir. Bakı-Tbilisi-Ceyhan -Qafqazı Aralıq dənizinə, Bakı-Tbilisi-Ərzurum -Qafqazı Anadoluya bağlayıb. Bakı-Tbilisi-Qars Pekini Londona bağlayıb. Hazırda inşasına başlanılmış TANAP layihəsi isə "Cənub" qaz dəhlizi ilə Qafqazı Balkana bağlayacaq. Beləliklə, sözün həqiqi mənasında desək, qüdrətli bir Azərbaycan qüdrətli bir Türkiyə ilə birləşdikdə, bu strateji əməkdaşlıqda qazanan sadəcə Türkiyə və Azərbaycan olmur, bütün Qafqaz, bütün Balkan, hətta Avropa və Asiya qazanır. Bu baxımdan həmin transmilli layihələr həqiqətən əsrin layihələri, tarixi hadisələrdir. Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasna həsr olunmuş təntənəli mərasimdəki çıxışı zamanı Albaniya Respublikasının energetika naziri Damian Guknurinin bu ifadələri TANAP-ın Avropa dövlətlərinin enerji təhlükəsizliyində necə böyük rol oynayacağını çox aydın təsdiq edir: "Bu, çox mühüm və Avropanın enerji xəritəsini dəyişdirəcək bir tədbirdir. Bu layihə mənim ölkəm üçün çox vacib bir layihədir. Nəyə görə? Çünki Avropa etibarlı və alternativ enerji mənbəyi ilə təmin edilir. Bu Avropa İttifaqının gələcəyi üçün vacibdir, onun təhlükəzsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki alternativsiz qitənin gələcəyi təmin edilə bilməz. Bu, eyni zamanda, müxtəlif ölkələr arasında əməkdaşlığı təmin edir. Vaxtilə münaqişədə olan ölkələr – Albaniya, Monteneqro bu gün bir yerdə çalışırlar və Azərbaycandan gələn kəməri digər kəmərlərlə birləşdirmək üçün əllərindən gələni edirlər. Eyni zamanda, bunun həm mənim ölkəm, həm Cənubi-Şərqi Avropanın digər ölkələri üçün böyük iqtisadi təsiri olacaqdır... Biz artıq enerji qovşağına çevrilirik. Bizim hökumətimiz bunu prioritet məsələ kimi müəyyən edib". Göründüyü kimi, iki qitədəki dövlətlər arasında əməkdaşlığa, sosial rifaha, sülhə, barışığa, dinc birgəyaşayışa güclü stimul verəcək bu transmilli layihələrin təşəbbüskarı, əsas rol oynayanı, lideri də Azərbaycandır. Bütün riskləri – maliyyə risklərini, texniki risklərin hamısını Azərbaycan öz üzərinə götürüb. Dövlət də, xalq da əmindir ki, bu son dərəcə əhəmiyyətli layihələr uğurla icra ediləcədir.

Dünya iqtisadiyyatında çox mühüm rol oynayan karbohidrogen ehtiyatları ilə təminat dövlətlərin nəinki iqtisadi, nəinki sosial, həm də çox mühüm siyasi məsələsidir.

Azərbaycanın neft-qaz sektorunda vəziyyət yaxşıdır. Həm ölkə daxilində, həm xarici tərəfdaşlar bu sahəyə investisiyalarını artırırlar. Yeni tikilən platformalar, qazılan quyular bizim enerji potensialımızı daim artırır. Dövlət başçısı XXI əsrin nəhəng layihəsi olan TANAP-ın icrası barədə deyib: "Hesab edirəm ki, biz bu böyük layihəni vaxtında icra edəcəyik. "Cənub" qaz dəhlizinin təşəbbüskarı Azərbaycandır. Bu layihənin icrası nəticəsində həm Azərbaycan, həm də onun qonşuları və Avropa ölkələri böyük fayda götürəcəklər. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir. Bu üç layihə – "Şahdəniz-2", TANAP və TAP Avropanın enerji xəritəsini dəyişəcək, Azərbaycanı çox önəmli iqtisadi və enerji tərəfdaşına çevirəcək və ən vacibi, Azərbaycan xalqının bundan sonra da iqtisadi və maliyyə məsələlərinin həlli sahəsində rifahını təmin edəcəkdir". Azərbaycanın 100 illik qaz ehtiatı vardır. Ölkəmizin beynəlxalq əməkdaşlıqda apardığı siyasətin mahiyyəti budur ki, tərəflər arasında rəqabətə, yaxud da ki, qarşıdurmaya yol verilməsin, əksinə, burada maksimum əməkdaşlıq olsun. Çünki səmərəli əməkdaşlıq, qarşılıqlı mənafelərin təmini həm sosial-iqtisadi inkişafın, həm də rifah halının yüksəlişinin və siyasi stabilliyin əsasıdır.. Azərbaycan əməkdaşlığa məhz bu dünyagörüşü ilə yanaşır. Nəticə çox uğurludur. Ölkəmizin siyasəti çox açıqdır, xoşniyyətlidir, şəffafdır və bu siyasət ölkələri birləşdirməyə, qarşılıqlı inkişafa, maraqları ödəməyə, şəffaf münasibətlərə, bir-birinin daxili işlərinə qarışmamağa hesablanıb. Bu gün ölkəmiz dünyanın önəmli enerji təchizatçısına çevrilir və neft strategiyası Azərbaycanın müstəqilliyinə və iqtisadi inkişafına mühüm töhfələr verir.

Beynəlxalq iqtisadi əlaqələrdə ən mühüm şərt, təbii ki, qarşılıqlı mənafelərin və şəffaflığın təmin olunması, müvafiq hüquqi bazanın yaradılması və obyektiv, dinamik, operativ işləməsidir. Azərbaycan artıq bu sahədə özünü təsdiq etmiş və sınanmışdır. Ona görə də ölkəmiz dünya arenasında ən etibarlı ölkə imicini qazanıb. Buna görə də Azərbaycan yeni-yeni nəhəng layihələrin iştirakçısı və təşəbbüsçüsü olur. Ölkəmizin beynəlxalq əməkdaşlığının daim genişlənməsi və strateji tərəfdarlarının artmasının əsas səbəblərindən biri də budur.

Azərbaycanda həyata keçirilən neft strategiyası ölkənin geo-siyasi maraqlarına, qeyri-neft sektorunun hərtərəfli inkişafına, müstəqilliyimizin möhkəmləndirilməsinə və əbədiliyinə xidmət edir. Azərbaycanın iqtisadi müstəqilliyi siyasi müstəqilliyin sarsılmaz təminatçısıdır.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**